*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 549-553*

https://doi.org/10.62837/2025.10.549

**GÜLXANIM QURBANOVA**
**Azərbaycan Dillər Universiteti,magistrant**
**Email:** gulkhanimgurbanova@gmail.com

# ZEYDİ SMİTİN “AĞ DİŞLƏR” ƏSƏRİNDƏ KİMLİK BÖHRANI.

## XÜLASƏ.

Müasir Britaniya ədəbiyyatında postkolonial yanaşma ,keçmiş imperiya təcrübələrinin ölkənin bugünkü sosial və mədəni strukturlarına təsirini araşdırmaq üçün əsas çərçivə təqdim edir. Bu kontekst müasir britaniyalı yazıçılar -Salman Rüşdi,Zeydi Smit,Andea Levi və Hanif Kureyşi -üçün yeni bədii mövzular,xüsusilə kimliyin yenidən qurulması,hibridlik və sosial fərqliliklərin təsviri imkanlarını təmin etmişdir. Zeydi Smitin “Ağ dişlər” (“ White teeth” ) romanı, Londonun çoxmədəniyyətli mühüti və fərqli nəsillərin kimlik axtarışlarını bədii şəkildə təqdim edir. Əsərdə Arçi Cons, İri Cons, Klara Bouden, Samad İkbal, Alsana İkbal, Magid İkbal, Millət İkbal, Markus Çalfen, Coys Çalfen və Coşua Çalfen ailələrinin həyat hekayələri vasitəsilə keçmiş kolonial münasibətlərin bugünkü diaspor icmaları üzərindəki təsiri, nəsillərarası gərginlik və etnik, dini müxtəlifliklərin gündəlik həyatda təzahürü araşdırılır [3]. Postkolonial Britaniya ədəbiyyatı həm tarixi reallıqları təhlil edir, həm də hibrid kimliklərin formalaşması, çoxmədəniyyətli cəmiyyətin inkişafı və “britaniyalılıq” anlayışının transformasiyasını əks etdirir. White Teeth isə bu prosesləri əyani şəkildə göstərən nümunəvi bir əsərdir.

**Açar sözlər:** Britaniya ədəbiyyatı,Zeydi Smit,Ağ dişlər, hibrid kimlik, London, çoxmədəniyyətlilik,kimlik böhranı.

**Ключевые слова**: британская литература, Зейди Смит, Белые зубы, гибридная идентичность, Лондон, мультикультурность, кризис идентичности.

**Keywords**: British literature, Zadie Smith, White Teeth, hybrid identity, London, multiculturalism, identity crisis.

## 1. Giriş.

Müasir Britaniya ədəbiyyatının hazırkı mənzərəsini dəyərləndirərkən postkolonial yanaşmanın formalaşdırdığı yeni ədəbi dinamikanı nəzərə almadan obyektiv nəticəyə gəlmək mümkün deyil. XX əsrin ortalarından başlayaraq imperiya hakimiyyətinin sonlanması Britaniyanın yalnız siyasi konturlarını dəyişməmiş, həm də ölkənin özünüdərk modelini yenidən qurmuşdur. Müstəmləkə sisteminin süqutu ölkənin ictimai yaddaşını, mədəni münasibətlərini və ədəbi özünütəsvir praktikasını köklü şəkildə yeniləmiş, nəticədə Britaniya keçmiş imperiya münasibətlərini bədii şəkildə müzakirə edən çoxsəsli diskursla üzləşmişdir.

Bu dövrdə postkolonial problematika xüsusilə mədəni əlaqələrin yenidən qurulması, diaspor icmalarının təcrübələri və çoxmədəniyyətli şəhər həyatının təsviri vasitəsilə aktuallaşır. Salman Rüşdi, Zeydi Smit, Andrea Levi və Hanif Kureyşi kimi yazarların əsərləri keçmiş kolonial münasibətlərin bu günkü sosial reallıqla necə kəsişdiyini nümayiş etdirir. Onların mətnlərində kimlik böhranı,nəsillərarası gərginlik, dini və etnik müxtəliflik kimi mövzular həm fərdi, həm də kollektiv miqyasda araşdırılır. Bununla da postkolonial ədəbiyyat Britaniyanın tarixi irsinin müasir cəmiyyətlə necə dialoq qurduğunu göstərən mühüm bədii platformaya çevrilir. Britaniya postkolonial yazıçılarının əsas töhfəsi keçmişin təsvirindən daha genişdir; bu ədəbiyyat müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri nəticəsində yaranan hibrid kimlik formalarını, qloballaşan şəhər məkanında yaşanan mənəvi və sosial dəyişiklikləri və "britaniyalılıq" anlayışının davamlı transformasiyasını bədii müstəviyə daşıyır. Xüsusilə London kimi çoxmədəniyyətli mərkəzlərin ədəbi təcəssümü postkolonial yanaşmanın müasir britaniya nəsrində niyə əsas nəzəri çərçivəyə çevrildiyini açıq şəkildə nümayiş etdirir.

**2.Zeydi Smit "Ağ dişlər" əsərində kimlik böhranı.**

Günümüzdə kimlik böhranı çox aktual mövzulardan biri sayılır. Mövzunun aktuallığı ondan ibarətdir ki,müasir dünyada bir çox dillər ,mədəniyyətlər, miqrasiyalar,dinlər bir biri ilə daim əlaqədə olurlar. Zeydi Smitin "Ağ dişlər" ("White teeth") romanı bütün bu mövzuları, qəhramanların həyat hekayələri vasitəsi ilə geniş və aydın şəkildə izah edir, bu isə kimlik böhranın təqdiqatının həm ədəbiyyatda ,həm də müasir dünyanı başa düşməkdə nə qədər mühüm olduğunun göstəricisidir.

Postkolonial ədəbiyyatın ən vacib nümunələrindən sayılan "Ağ dişlər" romanı 2000ci ildə çap edilib və bu əsər müasir Britaniya ədəbiyyatının ən güclü səsi hesab olunur .

Əsərdə işıqlandırılan mövzular bunlardır: kimlik böhranı,kimlik axtarışı,miqrasiya,adaptasiya,mədəni toqquşmalar,nəsillərarası fərq,dini ziddiyətlər. Roman multikultural Londonda fərqli irqdən, mədəniyyətdən,dindən olan insanların necə birlikdə yaşadığını göstərir.

Əsərdə çoxmillətli London cəmiyyətində yaşayan Cons, İkbal və Çalfen ailələri haqqında danışılır. Roman Arçi Consun intihar etmək istəyi ilə başlayır,buna səbəb isə həyat yoldaşının ondan boşanmaq istəyi idi [3,4].Xasiyyət olaraq Arçi zəif, özünə inamı olmayan bir fərddir. Daha sonra o Klara ilə tanış olur. Arçi ingilisdi,Klara isə yamaykalı. Klara dindar ,qayda qanunu olan ailədə böyüyür. Belə bir ailədə böyüdüyünə görə hər zaman azad olmağı arzu edirdi və çıxış yolu axtarmağa başlamışdı . Gənc ikən Rayan Topsla tanış olur və ona aşiq olur ,lakin Rayan hər zaman Klaranı dəyişdirmək istəyir, bu isə onun uşaqlıqda keçirdiyi hissləri yadına salır və azad olmaq istəyirdi. Rayanla birlikdə olarkən moto qəzada qabaq dişləri zərər görür, bu isə əsərin açar məqamlarındandır[3,27]. Tək çıxış

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 549-553*

yolunu Arçi ilə evlənməkdə görür ,aralarında çox böyük yaş fərqi olsa belə. Zeydi Smitin həyatı ilə müqayisə etsək görə bilərik ki, Zeydi Smitin anası yamaykalı, atası isə ingilis olub. Zeydi Smit Vilsdendə böyüyüb, bu şəhər isə İngiltərənin çox multikultural şəhərlərindən sayılır. "Ağ dişlər" əsərindədə hadisələr bu ərazidə baş verir. Əsərin ikinci hissəsində Arçi və müharibədə birlikdə olduğu dostu Samadı görə bilirik. Bu hissədə ilk miqrant nəslin necə öz adət ənənəsini qoruyub saxlamaq istədiyi analiz edilir. Samad Banqladeşdən olan müsəlmandır, Londona öz ailəsi ilə gəlib və həyatın burada Banqladeşdəkindən fərqli olduğunu görərək istəyirdi ki ,öz adət ənənəsini qorusun və övladlarına da ötürsün. Yeni nəslin ingilis cəmiyyətinə daxil olmaq istəyini öz övladlarında görən Samad ,Magidi Banqladeşə göndərir lakin onun bu cəhdi də, illər sonra nəticə vermir [3,196]. Bu faktorların hər biri əsərdə kimlik böhranı ilə üzləşməyin sübutudur. Əsərdə gördüyümüz kimi, Samad və Arçi hər zaman "mən kiməm?" ,"hara aidəm?"sualları ilə tez tez rastlaşırıq. Alsana ,Samad,Arçi və Klara ilk immiqrant nəsil hesab olunduğuna görə,onların yeni ölkədə kimlik problemi ,adaptasiya problemi ilə üzləşdiklərini görə bilərik.

Zeydi Smitin valideyin modellərini əsərdə tapa bilərik : yamaykalı ana modeli – Klara, və britaniyalı ata modeli-Arçi. Valideyn modelləri vasitəsi ilə Zeydi Smitin bioqrafiyasının izlərini onun əsərində müşahidə etmək mümkündür.

Psixoanalitik yanaşma əsərdəki kimlik böhranı, travmaları araşdırır. Romanla uyğunluğu ondadır ki ,əsərdə açıq şəkildə qəhramanların miqrasiya travmasını,kimlik parçalanmasını,keçmiş həyatı ilə bağlılığı,valideyn-övlad konflikti ilə rast gələ bilərik. Nümunə olaraq Samad İkbal götürə bilərik. Əsər başlayandan onun içində,daxili dünyasında daim mübarizə apardığını görürük, əvvəlki həyatının daha yaxşı,"təmiz" ,dininə bağlı olduğunu xatırlayır, indiki həyatı isə tamamilə dəyişib, dindən uzaqlaşıb, günah bildiyi əməlləri edir və bütün bu fikirlər ona vicdan əzabı çəkdirir,narahatlıq verir,sanki öz içində bir " müharibə" aparır. Bu səbəbdən Samad özündən fərqli olaraq övladlarından heç olmasa birinin həyatını dəyişdirmək istəyir ki ,öz doğma adət ənənəsini davam edən biri olsun. Magidi Banqladeşə göndərir lakin, qayıdanda əkizlər tam bir birindən fərqlənir ,çünki fərqli mühitlərdə böyüyüblər və bir birinin əksinə çevriliblər.

Arçinin qızı İriyə gəldikdə isə, yeniyetməlikdə özünü artıq bəyənməməyə başlayır. Digər insanlardan fərqləndiyini əsas tutaraq görünüşünü dəyişməyə başlayır,bu cəhdlərin hər biri özünün,kimliyinin axtarışı üçün etdiyi cəhdlərdir,lakin hər biri uğursuz alınır [3,268].

Tədqiqatçıların dediklərini əsas götürərək ,deyə bilərik ki kimlik böhranı,kimlik problemi daha çox ikinci nəsil immiqrantlara təsir edir. "Ağ dişlər" əsərində nümunə olaraq İri , Magid və Milləti götürə bilərik. İri özünü nə tam yamaykalı ,nə tam ingilis ,nə Magid kimi sakit,mülayim,nə Millət kimi isyankar hesab etmir. İri özünü daima "çirkin" və "lazımsız" hesab edir ,saçının buruq olmasını yox düz olmasını və buna görə də özünü ,görünüşünü dəyişmək istəyir. Digər tərəfdən isə bunların hər

birini Millətin gözündə gözəl görünmək üçün edir lakin, kimlik formalaşmadığından anlamır ki, sevginin görünüş ilə heç bir əlaqəsi yoxdur.

Magid ənənəvi mühitdə böyüyür, Millət isə Londonda üsyankar gənc olaraq formalaşır, vaxt keçdikcə isə qardaşlar birbirinə nifrət bəsləməyə başlayır. Bu hadisələr ən çox Samadı sarsıdır.Hadisə qarışıqlıqla bitir və əsər açıq sonluqla bağlanır. Kimlik böhranı Zeydi Smitin romanının ən mühüm mövzularındandır. Tədqiqatçılar qeyd edirlər ki, roman fərqli millətlər ,mədəniyyətlər irqlərin nəsillərarası toqquşmasını əks etdirir.Postkolonial tənqid kimlik problemi üçün bir sıra nəzəri yanaşmalar təklif edir . Əsas götürülən nəzəriyyələrdən biri Homi Bhabhanın hibridlik (hybridity) konsepsiyasıdır. Homi Bhabha iddia edir ki mədəniyyətlərin toqquşması nəticəsində” “üçüncü məkan”(third space) yaranır və burada yeni, qarışıq kimlik yaranır [1].Əsərdə bu anlayışı İrie üzərindən görə bilərik, o özünü nə tam ingilis nə tam yamaykalı kimi qəbul edə bilmir, sanki ortada qalıb.

Bir başqa mühüm nəzəriyyələrdən biri Edvard Saidin “digərlik” (otherness) konsepsiyasıdır [2]. Edvard Said göstərir ki keçmiş koloniyalardan olan insanları tez tez “başqa”, “yad” kimi qəbul edirlər, özlərini daha sivil ,savadlı,dünyagörüşlü göstərmək üçün. Nümunə olaraq İkbal ailəsinin cəmiyyət tərəfindən tam britaniyalı kimi qəbul edilməməsi ilə özünü göstərir [3].

Mövcud tədqiqatı ümumiləşdirərək demək olar ki, ədəbiyyatşünaslar “Ağ dişlər” romanını irqi ,dini, mədəni və ailə dəyərlərinin kəsişdiyi bir əsər kimi qiymətləndirirlər.Tədqiqatçıların çoxu hesab edir ki, Smitin romanı multikultural bir mühitdə identikliyin formalaşmasının mürəkkəbliyini göstərir və vurğulayır ki, mənsubiyyət heç vaxt birmənalı olmur, xüsusilə bir neçə mədəni sistem arasında yaşayan insanlar üçün. Beləliklə, Bhabha və Saidin analitik yanaşmaları romanda kimlik mövzusunun dərindən araşdırılması üçün nəzəri baza yaradır və obrazların çoxqatlılığını , eləcə də mədəniyyətlərarası qarşıdurmaları açmağa imkan verir.

**Гурбанова Гюльханум**

**КРИЗИС ИДЕНТИЧНОСТИ В РОМАНЕ ЗЕЙДИ СМИТ «БЕЛЫЕ ЗУБЫ».**

**РЕЗЮМЕ.**

В современной британской литературе постколониальный подход служит важным теоретическим инструментом для анализа того, как наследие бывшей империи продолжает влиять на социальную и культурную жизнь страны. На этом фоне современные британские авторы — Салман Рушди, Зейди Смит, Андреа Леви и Ханиф Курейши — обращаются к темам пересмотра идентичности, культурной гибридности и социального разнообразия.

Роман Зейди Смит «Белые Зубы» (“White Teeth”) представляет Лондон как пространство многокультурности и демонстрирует, как различные поколения ищут своё место в обществе. Через истории семей Арчи и Ири Джонсов, Клары

Боуден, Самеда и Алсаны Икбал, Маджида и Миллата Икбалов, а также Чойс и Чошуа Чалфенов раскрываются последствия колониального прошлого, проявляющиеся в современной диаспорной среде. Взаимоотношения поколений, религиозные и этнокультурные различия, а также вопросы принадлежности составляют центральную проблематику произведения [3]. Постколониальная британская литература не только осмысляет историческое наследие, но и исследует становление гибридной идентичности, эволюцию мультикультурного общества и изменение представлений о «британскости». Роман White Teeth является ярким примером художественного отражения этих процессов.

**Gurbanova Gulkhanim**

**IDENTITY CRISIS IN ZADIE SMITH'S "WHITE TEETH".**

**ABSTRACT.**

In contemporary British literature, the postcolonial perspective functions as a key analytical framework for understanding how the legacy of the former empire continues to shape the nation's social and cultural structures.Within this context, modern British writers such as Salman Rushdie, Zadie Smith, Andrea Levy, and Hanif Kureishi explore themes related to identity reconstruction, cultural hybridity, and social diversity.

Zadie Smith's novel «White Teeth» portrays London as a dynamic multicultural environment and highlights the struggles of different generations to define their identities. Through the intertwined narratives of Archie and Irie Jones, Clara Bowden, Samad and Alsana Iqbal, Magid and Millat İqbal, as well as the Joyce and Joshua Chalfen , the novel examines how colonial history continues to influence present-day diaspora communities. Intergenerational tensions, ethnic and religious differences, and the complexities of belonging form the core of the novel's thematic focus [3].Postcolonial British literature not only reconsiders historical experience but also investigates the development of hybrid identities, the evolution of a multicultural society, and the transformation of the notion of "Britishness". White Teeth stands as a significant literary example reflecting these ongoing processes.

**Ədəbiyyat siyahısı:**

1. Bhabha, H. K. (1994). The location of culture. Routledge.
2. Said, E. W. (1978). Orientalism. Pantheon Books.
3. Smith, Z. (2000). White Teeth. Hamish Hamilton.

**Rəyçi: f.f.d.dos. Məmmədova Samirə Arif qızı**